# «Yunayted Кredit Bank» Açıq Səhmdar Cəmiyyətinin
# Кredit Кomitəsi haqqında
# Ə S A S N A M Ə

## I. Ümumi müddəalar

1.1.Bu Əsasnamə «Banklar haqqında», «Azərbaycan Respublikasının Milli Bankı haqqında»Azərbaycan Respublikası Qanunlarına,Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına Azərbaycan Respublikası Milli Bankının təlimat və qaydalarına,habelə Bank Nəzarəti üzrə Bazel Komitəsinin«Kredit təşkilatlarında korporativ idarəetmənin təkmilləşdirilməsi» tövsiyyələrinə uyğun olaraq hazırlanmış və «Yunayted Kredit Bank»Açıq Səhmdar Cəmiyyətində Kredit Komitəsinin (bundan sonra «Komitə» adlanacaq ) fəaliyyətinin əsas prinsiplərini müəyyən edir.

**1.2.**Komitə öz fəaliyyətində "Banklar haqqında" Azərbayjan Respublikasının Qanununu, digər aidiyyəti qanunvericilik aktlarını, Milli Bankın və Bankın kredit verilməsi və risklərin idarə edilməsinə dair qayda və prosedurlarını, Bankın Nizamnaməsini və bu Əsasnaməni rəhbər tutur.

## II. Komitənin məqsədi

2.1.Komitənin məqsədi bank resurslarının səmərəli aktivlərdə yerləşdirilməsi üçün Kredit Siyasətində göstərilən hüquqi və fiziki şəxslərə kreditlərin verilməsini və onların vaxtında qaytarılmasına nəzarəti təmin etməkdən ibarətdir.

2.2.Komitə bankın kredit siyasəti və prosedurlarının düzgün həyata keçirilməsini təmin edir.

## III.Komitənin vəzifələri

3.1. Kredit komitəsinin başlıca vəzifələri aşagıdakılardan ibarətdir:

3.1.1.Müşahidə şurasının müəyyən etdiyi limitlərdən artıq kreditlərin verilməsi və kredit öhdəliklərinin götürülməsi, habelə onların şərtlərinin dəyişdirilməsi və restrukturizasiyasını təsdiq etmək;

3.1.2.Kreditlərin cəmləşdirilməsinə nəzarət etmək;
3.1.3.Müxtəlif fəaliyyət növlərinin və sahələrin kreditləşməsi üçün qaydaların hazırlanması və tətbiq edilməsini təmin etmək;
3.1.4.Kreditlərin və kredit öhdəliklərinin faiz dərəcələrini müəyyən etmək;
3.1.5.Vaxtaşırı kredit portfelinin qəflətən monitorinqini həyata keçirmək;
3.1.6.Girovların müntəzəm olaraq yenidən qiymətləndirilməsini təmin etmək;
3.1.7.Keditlərin verilməsi üzrə səlahiyyətlərə və prosedurlara riayət edilməsini təmin etmək;
3.1.8.Kreditlərin qaytarılması üçün görülən bütün tədbirlərin icrasına rəhbərlik etmək;
3.1.9.Keditlər üzrə mümkün zərərlər üçün yaradılmış ehtiyatların yetərliliyini (adekvatlığını) yoxlamaq və təhlil etmək;
3.1.10.Ayda bir dəfədən az olmamaq şərti ilə kreditlərin alınması üçün ərizələri nəzərdən keçirmək;
3.1.11.Ən azı ayda bir dəfə kredit portfelinə aid riskləri təhlil etmək;
3.1.12.Milli Bankın qaydalarına uyğun şəkildə bütün kreditlərin təsdiqi, təsnifatı, ehtiyatların yaradılması, vaxtında və tam həcmdə ödənilməsi üçün struktur bölmələri tərəfindən hazırlanmış qayda və prosedurlara baxmaq və təsdiq olunması üçün Müşahidə Şurasına təqdim etmək.

## IV. Komitənin səlahiyyətləri

4.1.Daxil olmuş kredit ərizələrini (sifarişlərini) müzakirə etmək, kreditin verilib və yaxud verilməməsinə dair qərarlar qəbul etmək;
4.2. Komitəyə verilmiş səlahiyyətlər daxilində kreditlərin məbləğini təsdiq etmək;
4.3.Təqdim edilmiş hesabatlar əsasında kredit portfelini hər ay təhlil etmək;
4.4.Kreditləşmə prosedurlarına uyğun olaraq əsas risk premiyası daxil olmaqla, kreditlərin qiymətləndirilməsini müəyyən etmək və dövrü olaraq təhlil etmək;

4.5.Azərbaycan Respublikası Milli Bankının müvafiq qaydalarının tələblərinə uyğun olaraq problemli borclar üzrə yaradılmış zəruri ehtiyat fondunu ilin yekunlarına görə kənar auditorlarla birlikdə yoxlamaq;
4.6.Komitənin səlahiyyəti daxilində olan kredit məbləğindən artıq məbləğdə olan hər hansı bir kreditin verilməsi məqsədilə Bankın Müşahidə Şurasına müraciət etmək;
4.7.Müşahidə şurasına təqdim edilmək üçün Kredit Siyasətinə dəyişiliklər barədə İdarə Heyətinə təkliflər vermək;
4.8.Kredit portfelinə nəzarət , onun təhlili və monitorinqi barədə İdarə Heyətinə rəy və təkliflər vermək;
4.9.Kredit şöbəsi tərəfindən aparılan kredit əməliyyatlarına nəzarət zamanı aşkar edilən yerinə yetirilməyən kreditlər barədə İdarə Heyətinə öz təkliflərini vermək ;
4.10.Kkredit müraciətlərinə vaxtında cavab verilməsində,müştərilərə xidmət göstərilməsində və kreditlərin verilməsi prosesində gecikdirmə hallarının aradan qaldırılmasına nəzarəti həyata keçirmək;
4.11.Kreditləşmə təlimatında və aidiyyəti qaydalarda nəzərdə tutulmuş digər funksiyaları həyata keçirmək.

## V. Komitənin tərkibi və fəaliyyətinin təşkili

5.1 Komitənin tərkibi Bankın Müşahidə Şurasının qərarı ilə müəyyən edilir və bankın idarə Heyəti üzvlərindən və struktur bölməsinin rəhbərlərindən təşkil olunur.
5.2.Komitəyə İdarə Heyətinin üzvü rəhbərlik edir. Bankın Baş Maliyyə inzibatçısı və mühasibat xidmətinin vəzifəli şəxslərindən biri komitənin üzvü olmalıdır;
5.3.Komitənin fəaliyyətini Komitənin sədri təşkil edir.
5.4.Komitənin sədr və ya sədr müavini daxil olmaqla, 2/3 üzvünün iştirakı yetərsay hesab edilir. Komitənin üzvlərindən hər hansı biri olmadıqda

Komitədə onun üzvlük vəzifələrini işdə onu əvəz edən şəxs yerinə yetirir. Komitənin alternativ üzvünün səs vermək hüququ yoxdur.

5.5.Komitənin bütün üzvləri səsvermə zamanı bərabər hüquqlara malikdirlər. Qərar qəbul edilərkən bitərəf qalmağa icazə verilmir. Qərarlar səs çoxluğu ilə qəbul edilir.

5.6.Kredit üzrə ərizələrin (sifarişlərin) daxil olmasından asılı olaraq Komitənin iclasları müəyyən edilmiş gün və vaxtda keçirilir.

5.7.Bəzi hallarda təxirə salınması mümkün olmayan, baxılması zəruri olan ərizələr daxil olduqda Komitənin sədri bu ərizələrin müzakirə edilməsi üçün əlavə iclaslar çağıra bilər.

5.8.Təxirəsalınmaz məsələlər yaranarsa və Komitənin iclas çağırması qeyri mümkün olarsa, müraciət fərdi qaydada komitənin üzvləri tərəfindən təhlil edilərək imzalanır və Komitənin sonrakı iclasının protokolunda rəsmiləşdirilir.

5.9.Sədr Komitənin işlərinin bir hissəsində və ya hamısında iştirak etmək üçün aidiyyəti şəxsləri dəvət edə bilər. Komitəyə dəvət olunanlar onlara aid məsələlərlə bağlı öz fikirlərini ifadə edə bilər, lakin səsvermədə iştirak edə bilməzlər.

5.10.Katib funksiyası bankın aidiyyəti departamentinin işçisi tərəfindən həyata keçirilir.

5.11.Planlaşdırılmış növbəti Komitə iclasından ən azı bir gün əvvəl Komitənin qarşısında hesabat üzrə təyin olunmuş məsul şəxs hesabatı Komitənin katibinə təqdim edir. Katib müvafiq sənədlərin surətlərini iclasın gündəliyi ilə birlikdə iclas başlanmazdan bir gün əvvəl Komitənin bütün üzvlərinə paylayır.

5.12.Katib Komitənin bütün protokollarını saxlayır. Protokollar tam hazırlandıqdan sonra imza üçün Komitənin üzvlərinə təqdim edilir. Qərarların icra edilməsi üçün imzalanmış protokolların surətləri Komitənin bütün üzvlərinə və aidiyyəti strukturlara paylanılır.

5.13.İclasın müzakirəsinə çıxarılmış sənədlər imzalanmış protokolların əsli ilə birlikdə ayrıca qovluqda saxlanılır.

## VI. Hesabat

6.1.Kredit komitəsi tərəfindən Müşahidə Şurasının növbəti iclasına kredit portfeli və kredit risklərinin idarə edilməsi haqqında hesabat təqdim edilir. Bu hesabata aşağıdakı məlumatlar daxil edilir :

6.2..Mümkün zərərlərin hesablanması daxil edilməklə qeyri-işlək aktivlər, o cümlədən yüksək risklə təsnifləşdirilmiş aktivlər;

6.3..Kreditlər üzrə öz öhdəliklərini pozmuş borcalanları müvafiq kateqoriyalara daxil etməklə bütün vaxtı keçmiş və faizləri hesablanmayan kreditlər, onların gecikmə müddətləri və səbəbləri;

6.4.Əvvəlki rüb ərzində yüksək risklə təsnifləşdirilmiş bütün aktivlər, belə təsnifləşdirmələrin səbəbləri, hər bir yüksək risklə təsnifləşdirilmiş aktiv üzrə mümkün zərərlər üzrə ehtiyatın yaradılmasına ayırmaların məbləği;

6.5.İri kreditlərin məbləği və sahələr üzrə cəmləşməsi;

6.6.Problemli aktivlərin keyfiyyətinin yaxşılaşdırılması üzrə təkliflər;

6.7.Restrukturizasiya olunmuş kreditlərin təsviri;

6.8.İnzibatçılara və onlarla əlaqədar maraqları olan şəxslərə verilmiş bütün kreditlərin təsviri.

## VII. Meyarlar

7.1.Komitə öz fəaliyyətində aşağıdakı meyarlara (şərtlərə) əsaslanmalıdır:

7.2.Müstəqillik: üzvlər tərəfindən qərarlar ətraflı araşdırılmalarla qəbul edilməli, kənar təsirlərdən azad olmalıdırlar;

7.3.Peşəkarlıq: kredit riskləri dəqiq və ətraflı şəkildə qiymətləndirilməli, qərarlar yalnız təqdim olunmuş dəlillər əsasında qəbul edilməlidir;

7.4.Kollegiallıq:qərarlar komitənin bütün üzvlərinin arasında açıq və aydın müzakirələr nəticəsində qəbul edilməlidir;
7.5.Riskin balanslaşdırılması və nəticə: Komitə kredit verilməsi barədə kommersiya maraqları ilə risklər arasında balans yaratmalıdır.

## VIII. Məsuliyyət

8.1.Bu Əsasnamə ilə Komitəyə həvalə edilmiş vəzifələrin vaxtında yerinə yetirilməsinə görə Komitənin sədri məsuliyyət daşıyır;
8.2. Komitənin digər üzvlərinin məsuliyyəti onların vəzifə borcları ilə müəyyən edilir.

## IX. Digər şərtlər

9.1.Bu Əsasnamə «Yunayted Kredit Bank»ASC-nin Müşahidə Şurası tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir;
9.2.Əsasnaməyə Bankın İdarə Heyətinin təklifləri əsasında yalnız Müşahidə Şurasının qərarı ilə əlavə və dəyişiliklər edilə bilər.